# MUSTAFA QULİYEVİN SƏNƏT KONSEPSİYASI

***M.Quliyev Avropa mədəniyyətinin qızğın müdafiəçisi idi. Ona görə də bəzən o, ifrata qapılaraq Şərq mədəniyyətini mühafizəkarlıqda ittiham edirdi. M.Quliyev Avropa ənənələri və Azərbaycan teatrı məsələsindən bəhs edərkən klassikin ümumbəşəriliyi ideyasından çıxış edirdi. Yeni teatr yaratmaq üçün aktyor sənətini inkişaf etdirmək, tərcümə və orijinal əsərlərlə repertuarı zənginləşdirmək, qadın aktyoru məsələlərindən bəhs edən tənqidçi ənənə və varislik problemini, o cümlədən Avropa dramaturqları V.Şekspir və F.Şiller kimi klassiklərə müraciətini təqdir edir.***

M.Quliyev səhnəyə təkcə tamaşaçı yeri və estetik zövq almaq üçün lazım olan məkan kimi baxmır, yüksək təhsil müəssisəsi kimi qiymət verirdi.

«Teatro həyəcan və bədii nüfuz vasitəsilə kütlənin görüşünü və mədəni səviyyəsini qaldıran və genişləndirən təlimi və tərbiyəvi bir orqandır.

Kütləyə nüfuz edən amillərdən biri olmaq, dolayısı ilə onun qayət mühüm siyasi əhəmiyyəti vardır».

M.Quliyevin sənət konsepsiyasında musiqi haqqında mülahizələr xüsusi yer tutur. Musiqimizə münasibətdə də o «mədəni inqilab»ın şablon tələblərindən törənən ideya-mənəvi sapıntılara yol verirdi.

20-30-cu illərdə M.Quliyevə yaxından bələd olan müasirləri sonralar onun ifratlarına da düzgün qiymət verirdilər: «Mustafa Quliyevin tənqidi fikirlərində, onun işində, tədbirlərində də bəzən ifrat olurdu. Lakin bu ifrat ötəri xarakter daşıyır, onun ideya mövqeyində əsas yer tutmurdu. Elə hallar da olurdu ki, onun ifrat kimi görünənə fikri, sözü əslində geriliyə, avamlığa, nadanlığa qarşı bir qəzəbli protest, bir könül hayqırığı kimi adi norma və vərdişlərin çərçivəsini aşmış olurdu» (Rəsul Rza. Əgər sağ olsaydı... «Ədəbiyyat və İncəsənət», 11 yanvar, 1969).

Həqiqətən də M.Quliyevin istər klassik irs, istər teatr, istərsə də musiqi mədəniyyətimizlə bağlı ifratları onun yeniliyi müdafiə naminə sərtlik və prinsipiallığından irəli gəlirdi. Bu səhvlərdə, bəzi inkarlarda keçmiş mədəniyyətə heç bir nifrət duyğusu yox idi. O yeniliyi müdafiə naminə, Azərbaycan mədəniyyətinin az bir zamanda dünya mədəniyyətləri sırasına çıxması naminə mübarizə apararkən səhvlərə və sapıntılara yol verirdi.

Ümumiyyətlə, M.Quliyev sənətin bütün növlərini ictimai-iqtisadi inkişafa kömək edəcəyi təqdirdə gərəkli sayırdı. Məsələn, o, Qliyerin «Şahsənəm» operasına yüksək qiymət verməklə yanaşı, dediyimiz baxımdan tənqid də edirdi.

«Qliyerin operası kimi bir operanın baş nöqsanı... onun həyatımızı yalnız tarixi bir aspektdə tərsim etməsindədir... O, feodal-xan mədəniyyətinin qürub edən günəşi ilə qızarmış gözəl bir bulud, bir masaldır. Onda hərəkət, dinamika və müasir həyatın iradəvi işlərindən bir əsər yoxdur. Boylə olurkən də o, bizim yeniləşmiş həyatımızın tələbatını təmin etməz» (Quliyev M. Azərbaycanda musiqi kulturunun inkişafı məsələləri. «Maarif və mədəniyyət», 1926, №7, s.35-36).

M.Quliyev «Leyli və Məcnun», «Şah İsmayıl», «Aşıq Qərib», «Əsli və Kərəm» operalarını «ibtidai» hesab edir. Çünki onları da musiqi danışığı əvəz edir. «Bunların musiqi cəhəti türk və fars motivlərindən feodal fars (İran) musiqisi (Şikəstə, Bayatı Qacar, Şur) qətiyyən Azərbaycanın tələbatına cavab vermirdi.

Azərbaycan musiqisi əzəmi dərəcəyə qədər nə İran musiqisi aləti tardan və nə də mütəxəssis musiqarların göstərdiyi nəzəriyyələrdən asılı deyildir». Beləliklə də M.Quliyev Azərbaycan musiqisinə çox bədbin baxır, onun bu sahədəki görüşləri xeyli dolaşıq və ziddiyyətli idi. Heç şübhəsiz ki, 20-ci illərin ortalarında meydana çıxmış bu fikirlərdə proletkult nəzəriyyəsindən gələn bir milli nihilizm var idi. O zaman qızışmış başlar ifrat revanşizmə qapılaraq köhnə mədəniyyəti yeni sənət üçün yararsız elan edir. Onun qədim və gözəl musiqi alətimiz olan tarla bağlı fikirləri bu baxımdan səciyyəvidir: «Tar nə xalq, nə də türk aləti deyildir, onun gələcəyi yoxdur. Musiqinin aristokrat cəmiyyətlərinə məxsus olduğu Ərəbistan, İran, Hindistanda üçdə bir, dörddə bir səsli musiqi alətləri mövcud idi. Bu alətlər nə kütləvi, nə də xalqa aid olmayıb, yalnız cəmiyyətin gözündə bir qisminə məxsusdur.

... Buna görə də kütləvi olmadığı kibi, gələcəyi də olmayan bir alətdə mahir ustadlar hazırlamanın heç bir mənası yoxdur» (Quliyev M. Azərbaycanda musiqi kulturunun inkişafı məsələləri). M.Quliyev tarın tədrisi əvəzinə türk xalq nəğmələrinin toplanıb işlənməsi, Avropa tipli orkestrin təşkilini vacib hesab edir. Tarçı, kamançaçı və zurnaçılardan ibarət Şərq orkestrinin, musiqinin inkişafı üçün əhəmiyyətli olmadığını söyləyən M.Quliyev tara mənfi münasibətini, həm də onun səsindəki hüzn və nalə ilə izaha çalışır. M.Quliyev əslində Avropa musiqisinə yol açmaq üçün Şərq və milli musiqiyə inqilabi bir cahad elan edirdi.

20-ci illərin sonlarına qədər M.Quliyevin görüşlərində musiqimiz və incəsənətimizlə bağlı ciddi dəyişikliklər baş vermir. Necə deyərlər, inqilabın dotələb mənafeləri, C.Cabbarlının «Firuzə» hekayəsində olduğu kimi, sürətli və ehtiraslı, hətta fantastik şuralaşma M.Quliyevin də görüşlərinin sərt və ehtiraslı tempini müəyyən edirdi. Onun fikrincə, Şərq incəsənətinə abstrakt yanaşmaq olmaz, onu saf-çürük edib «dərəbəylik cəmiyyətinin möhkəmlənməsinə xidmət edən» hissəsini atmaq lazımdır. Tənqidçi bu fikirdədir ki, «XII əsrə qədər tərəqqi edən Şərq incəsənətləri XII əsrdən sonra bir nöqtədə dayanaraq tərəqqi etməmişdir. Bundan sonra Avropa incəsənətləri, o cümlədən Avropa musiqisi çox tərəqqi etmiş, irəliyə doğru geniş addımlar atmışdır» (Quliyev M. Azərbaycanda musiqi mədəniyyətinin inkişaf yolları. «İnqilab və mədəniyyət», 1929, №2, s.26).

Əlbəttə, bu fikirlə razılaşmaq olmaz. XII əsr Azərbaycan mədəniyyəti tarixində İntibah erası idi. Musiqi elmimiz, poetika sistemləri məhz orta əsrlərdə xüsusi bir inkişaf keçirdi. M.Quliyev Şərq, o cümlədən orta əsrlər Azərbaycan mədəniyyətinə dərindən bələd olmadığı üçün belə fikrə gəlirdi. Əslində Avropa tarixi, elm və mədəniyyəti Şərqdən gəlirdi. Çünki «Ümumdünya tarixi Şərqdən Qərbə doğru hərəkət edir» (Hegel). «Bu günkü musiqimiz sənayeləşmiş Bakının, sənayeləşməkdə olan qəza mərkəzlərinin, traktorlaşan və maşınlaşan kənd təsərrüfatının yeni nəğmələrini, ritmlərini, havalarını tərənnüm etməlidir... yaradıcılığımız bu yeni türk musiqisi Şura sisteminin möhkəmlənməsinə xidmət etməlidir» - deyən bolşevik ideoloqu təbii ki, xalq ruhundan, əsrlərin hikmət xəzinəsindən su içən, ruhunu böyük türk-islam mədəniyyətindən alan tarı, muğamı qiymətləndirə bilməzdi. «Azərbaycan xalq musiqisinə bu vaxta qədər fikir verilməmişdir» - deyə musiqimizə canıyananlıqla yanaşsa da, M.Quliyevin ifrat inqilabçılığı, yeni cəmiyyət məsələlərinə aludəçiliyi Şərq-Azərbaycan musiqisini obyektiv tarixiliklə dəyərləndirməyə imkan vermirdi: «Sazandaların oxuduğu İran havaları bizim həyatımıza uyğun deyildir. Bu havaların çoxusu bədbin-



***İyirminci əsrin 20-30-cu illər tənqidinin fəal nümayəndələrindən olan M.Quliyevin yaradıcılığında onun sənət haqqında nəzəri görüşləri xüsusi yer tutur. Bütövlükdə sənətin mahiyyətini materializm mövqeyindən izah edən riyaziyyatçı maarif komissarı M.Quliyev sənətin tarixi mənşəyi, estetik mahiyyətini izah edərkən o zaman estetika sahəsində görkəmli nəzəriyyəçilər olan K.V.Plexanov və A.Lunaçarskinin görüşlərindən bəhrələnirdi.***

lik törədir. Bunların bir hissəsi mərsiyəxanlıq dövründən qalmış mərsiyə havalarıdır. Bir çoxu da qul, kölə havalarıdır. Mübarizədə aciz olan, mübarizə yollarını bilməyən bir qulun oxuduğu havalar heç şübhəsiz ki, ümidsizlik şərqiləri olacaqdır». Bunun müqabilində o, Azərbaycan kəndlilərinə Avropa musiqisi eşitdirməyi, türk xalq nəğmələrinin simfonik orkestr üçün işlənilməsi zərurətini irəli sürürdü.

M.Quliyevin sənət konsepsiyası materialist-marksist səciyyə daşıyır, o incəsənətin sinfiliyi prinsipini irəli sürüb, ardıcıl həyata keçirməyə çalışırdı. Xalqın mədəni-tarixi mənafelərini inqilabın və inqilabi zəmanənin tələblərinə tabe etdiyinə görə də tənqidçi bir sıra hallarda nəzəri-metodoloji yanlışlıqlara yol verirdi. O ictimai həyatda sənətkar mövqeyini müəyyənləşdirərkən dünyagörüşünə üstünlük verir, insanlarda həyata fəal münasibət oyatmağı incəsənətin başlıca vəzifələrindən hesab edirdi. M.Quliyevin müxtəlif fikir hərəkatlarına, modern ədəbi cərəyanlara, klassik estetika və ayrı-ayrı fikir adamlarına marağı tarixi bir zərurət idi. Marksist mövqelərdə dayandıqları üçün bu tənqidçilər idealist fəlsəfəni yabançı elan edir, materialist fəlsəfə və estetikaya xüsusi rəğbət və diqqət yetirirdilər. Bu baxımdan əruz və heca vəznlərini köhnəlmiş hesab edən, tarı və muğamatı fars musiqi aləti, əzilən siniflərin fəryadı kimi qiymətləndirib qəbul etməyən M.Quliyevin «İnqilab və mədəniyyət» jurnalının 1931-ci il tarixli 2 və 5-ci saylarında çap olunmuş «Fransız materialistlərinin estetik görüşləri» adlı silsilə məqalələri ciddi maraq doğurur.

Fransız materialist estetikasına tarixilik prinsipi əsasında yanaşan M.Quliyev belə nəticəyə gəlir ki, fransız ensiklopedistləri ictimai fikir aləminə feodal cəmiyyəti ilə mübarizədə üçüncü təbəqənin istək və ümidlərinin ifadəçisi kimi daxil olmuşlar. Əslində elmi üçüncü təbəqənin malı elan etmək onu burjua hakimiyyəti uğrunda mübarizə alətinə çevirməyə cəhd demək idi. M.Quliyev fransız materializminə Plexanov fəlsəfəsinin pəncərəsindən nəzər salırdı. 20-30-cu illərdə estetika sahəsində marksizmin lideri nüfuzu almış K.V.Plexanov marksist tənqidçi və filosof M.Quliyev üçün də dünya fəlsəfi-estetik fikrinə bir baxış meyarı idi. K.V.Plexanov deyirdi ki, XVIII əsr fransız materializmi Spinoizizmin növlərindən biridir. O bu zaman Helvetsi, Holbax və Lamartini Spinozaya yaxın hesab edirdi. Fəlsəfə tarixindən məlum olduğu üzrə Spinoza XVII əsr Niderland xırda burjua təbəqələrinin inqilabi hərəkatı ilə bağlı görüşlərin ifadəçisi idi ki, bu da dinsizlikdən başqa bir şey deyildi. Spinoza «İlahi siyasi traktat» əsərində din əleyhinə insan ağlını qoyur və onu mütləqləşdirirdi.

M.Quliyevə görə XVIII əsr fransız filosofları ingilis empriklərinin qüvvətli təsiri altında inkişaf etmişlər: «Fransız materialistləri daha davamlı sensualist idilər. Onlar insanın ruhi fəaliyyətinə duyğunun başqa bir şəkli kimi baxırdılar, onların fikrinə görə insanın bütün məfhum və təsəvvürləri onu əhatə edən mühit, təbiət və cəmiyyət təsiri altında əmələ gəlir. Materialistlər «insan tərbiyədən asılıdır» - deyə təkrar etməkdə idilər» (N 2, s.36).

M.Quliyev XVIII əsr fransız materialist estetikasında əsasən iki problem üzərində dayanır: gözəllik və zövq. Bu estetik kateqoriyaları şərh edərkən tənqidçi daha çox Didro və Helvetsinin yaradıcılığı üzərində dayanır. D.Didronun «Gözəlliyin mənşəyi və təbiəti haqqında tədqiqat» əsərində materialist-marksist filosof olan M.Quliyevin diqqətini cəlb edən onun idealist estetikanı tənqid etməsi idi. «İdealist filosoflar gözəlliyi göydə və Allahda axtarırdılar. Gözəlliyi insan öz təsəvvürünün, xəyalının gücü ilə yaradır, təbiətdə gözəllik, ahəng və intizam yoxdur. İnsan gözəlliyi mühitə özündən artırır» (N 2, s.38).

M.Quliyev D.Didronu gözəlliyə qeyri-sinfi münasibətə görə tənqid edir. M.Quliyev D.Didronun estetik görüşlərini onun burjua nəzəriyyəsinin tərkib hissəsi kimi izah edir. Ona görə də onun «Ailə atası» pyesini əprimiş, köhnəlmiş saray aristokrat əxlaqsızlığına qarşı yeni burjua əxlaqını qoyan əsər kimi qiymətləndirir. M.Quliyev D.Didronun «Aktyor haqqında bir mülahizə» əsərində irəli sürdüyü «pyesdə xarakterləri deyil, vəziyyətləri təsvir etmək lazımdır», «aktyor xarakterlərin psixologizmini atmalı, müəyyən bir vəziyyət yaratmalıdır» kimi tezisləri tənqid edərək göstərir ki, D.Didro «insanın qəlbini qətiyyən nəzərə almayır. Helvetsinin əksinə olaraq ehtirasa da əhəmiyyət verməyir» deyir. Ümumiyyətlə isə M.Quliyev D.Didronun fəlsəfi-estetik konsepsiyasını metafizika ilə əlaqəsinə görə məhdud hesab edir: «Didronun bütün fəlsəfi konsepsiyası metafizika ilə doludur. Hətta subyekt və obyekt vəhdətindən danışarkən belə o metafizikaya qapılır. Metafizika bu böyük materialisti məsələləri məhdud çərçivə içərisində dolaşdırmağa məcbur edir, nəticə etibarilə o ziddiyyətlərə düşür» (N 5, s.36).

M.Quliyevin fikrincə, Helvetsinin fəlsəfəsində «təfəkkür öz əhəmiyyətini itirir və onun yerində təsəvvürlər durur». Helvetsini fransız materialistləri içərisində ən ardıcıl, davamlı filosof hesab edən M.Quliyevə onun bütün təsəvvürləri əməl və hərəkətlərimizin son səbəbi kimi alınan duyğulara bağlamasını nöqsan hesab edir. Tənqidçi Helvetsinin də estetik görüşlərində metafizikadan irəli gələn cəhətlərin olduğunu qeyd edir. Onun «Ağıl haqqında...» əsərində gözəlliyə verdiyi tərifin («hər zaman və hər ölkədə insana xoş gələn şeyə gözəl deyilir») M.Quliyev yarımçıq və birtərəfli olduğu qənaətinə gəlir. Əvəzində isə qeyd edir ki, gözəllik hissi insana məxsus xasiyyətlərdən biridir. İnsan müəyyən hadisələrin təsiri altında müəyyən estetik zövq və həzz alır. Göründüyü kimi, M.Quliyevin özünün də gözəlliyə münasibəti xeyli abstrakt, başlıcası isə eklektik xarakterdədir.

M.Quliyevə görə, «sinfi mübarizənin rolunu qiymətləndirərkən qədim yazıçılardan irəli getməsə» də Helvetsinin estetik görüşləri sinfilik baxımından D.Didrodan daha aydın idi. Fikrimizcə, bu D.Didro və Helvetsinin yox, marksist tənqidçi M.Quliyevin nöqsanı və məhdudluğu idi.

Helvetsi «Ağıl haqqında...» əsərində deyirdi ki, «Sənət və elmin təkamülü dühadan daha artıq zaman və zərurətdən asılıdır». M.Quliyev bunu müsbət başlanğıc hesab edir və onun estetik görüşlərini rus tənqidçisi N.Q.Çernışevskinin estetik baxışları ilə müqayisə edirdi.

***M.Quliyevin fransız materialist estetikasına müraciəti, onun uğurlu və nöqsan cəhətlərini təhlil və şərh etməsi 20-30-cu illərdə yeni sənət konsepsiyalarını formalaşdırmaq baxımından nəzəri-tarixi əhəmiyyətə malik idi.***

*Qızqayıt Babayeva*